# M. Şahtaxtlı, N. Nərimanov və S.M. Qənizadənin humanist görüşləri

**Gülyanaq Nəbiyeva**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*ADPU*
**E-mail:** gulnebiyevaismail@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. Y.T. Rzayeva,
p.ü.f.d., T.Ə. Vahabova

**Acar sözlər:** humanizm ideyaları, Azərbaycanda humanizm, milli M.Şahtaxtlı, N.Nərimanov, S.M.Qənizadə, XIX əsrin II yarısı

**Ключевые слова:** идеи гуманиэма, гуманиэм в Аэербайджаре, начионалвный M.Şahtaxtlı, N.Nerimanov, S.M.Qanizade, вторая половина XIX века

**Key words:** humanism ideas, humanism in azerbaijan, national M.Şahtaxtlı, N.Nerimanov, S.M.Qenizade, second half of the XIX century

Azərbaycan ictimai-mədəni və pedaqoji fikrinin Birinci rus inqilabına qədərki (1905-1907) mərhələsində milli ictimai mühitdə humanist cəmiyyət yaratmaq ideyasının tanınmış ideoloqlarından biri də Məhəmmədağa Şahtaxtlıdır (1846-1931). Peterburqda və Almaniyada ali təhsil almış, qərb mütərəqqi fikrini kifayət qədər yaxşı mənimsəmiş, müasir düşüncəli bu böyük ziyalı XIX əsrin son onillikləri və XX əsrin başlanğıc dövrünün ən fəal fikir adamlarından biridir. Sosioloji məsələləri, cəmiyyət hadisələrini, ictimai gedişatı yaxşı bilən Məhəmmədağa qiymətli sosioloji təhlilləri ilə fərqlənir. Milli ictimai gerçəklikdə humanizmin bərqərar olması istiqamətində də onun analizləri müasir dünyanın tələb və diktəsi ilə uğurlu şəkildə uzlaşdırılır.

Hər şeydən əvvəl, M. Şahtaxtlı insana, onun şəxsiyyətinə və fəaliyyətinə geniş sferada baxa bilir. Humanist cəmiyyət yaratmaq ideyasında da həmin əhatəli prizmadan çıxış edir. Bunu onun naşiri və redaktoru olduğu “Şərqi-rus” qəzetində (14 mart, 1904) dərc etdiyi bir məqaləsindəki fikirləri də sübut edir. Müəllif göstərir ki, dünyaya gələn və “zindəganlıq edən” (ömür sürən - *G.N.*) hər kəsin bir neçə müqəddəs vəzifəsi vardır. Məsələn, millətə, dininə, vətəninə və s. xidmət. Bu xidmətlər sırasında “hüsni-xidmət” (xidmətlərin gözəli) olan insaniyyətə xidmət də vardır. İnsaniyyətə xidmət onu sevməkdən başlayıb ona fayda verməklə həyata keçirilir. Qəzetin bir başqa nömrəsində (8 iyul, 1904) Şahtaxtlı özünün məram və niyyətinin həm mənsub olduğu millətin, həm də başqa millətlərin, yəni bütün bəşər övladının xidmətində durmaq, onlara xeyirxahlıq göstərmək olduğunu söyləyir. Bunun zəminində isə onun bütün insanlığa məhəbbət bəsləməsinin dayandığını deyir. Belə bir ali hissi başqalarına da təlqin etməyə çalışır.

M.Şahtaxtlının da humanist cəmiyyət konsepsiyasında dinlər və məzhəblərarası ixtilaflar onun gercəkləşməsi yolunda ən qorxulu əngəllərdən biri hesab olunurdu. Müəllif bu qlobal ağrının həm sosial, həm də etiqad baxımından mahiyyətini, fəsad-larını şərh edərkən onu “bəni-növi-bəşərə zərər yetirən ehtiraslar içində... ən müzirri..., zəhri-mühlikə” (ən zərərlisi, nadanlıq zəhəri) adlandırır və yazırdı: ”Sən mənim əqayidimdə deyilsən, ona görə mən sənə düşmənəm”dən ibarət olan ehtiras insan-larda, əlbəttə ki, var. Din, məzhəb və siyasi məsləklər mübahisələri hamısı bundan çıxmışdır” (8,104). Bu yolu tənqid və rədd edən, onun zərərlərini

açıb göstərən müəllif öz mövqeyini də ortalığa qoyur, oxucu audutoriyasını da bu yoldan imtina edib qardaşlıq, dostluq və qarşılıqlı ehtiram yolunu tutmağa səsləyirdi. Hər kəsin "dininə, məsləkinə, əfkarına kamali-ehtiramla" yanaşdığını bəyan edən maarifçi ədib özünün məzhəbcə şiə olduğunu, lakin hər cür etiqad ədavətindən uzaq, tolerant bir şəxsiyyət olub inancından asılı olmayaraq bütün bəşər övladlarına hörmət bəslədiyini söyləyirdi: "Mənim şiəliyim elə bir şiəlikdir ki, məcus (atəşpərəst - *G.N.*) olsun, dəhri olsun, vəhşi olsun, mədəni olsun, bəni-növi-bəşərin hamısı mənimlə bərabər bir bədənin üzvləri olub. Yek vücud olduğumuza mütəqid (dəlalət-G.N.) edir" (8,104).

Din davalarının indiki əsrdə Avropada, əsasən, səngidiyini, bunun orada insanlar-arası münasibətlərin sağlamlaşmasına, humanist atmosferin və nəhayət, vüsətli tərəqqinin yaranmasına yetərincə müsbət təsir göstərdiyini qeyd edən Məhəmmədağa şərqdə sünni-şiə ədavətinin hələ də güclü şəkildə mövcudluğunu, hətta bəzi dini və siyasi dairələr tərəfindən körükləndiyini yazır. O, panislamizm və panxristianizm meyllərinin də kürəvi miqyasda humanist ideallarin reallaşmasına zərbə vurduğunu nəzərə çatdırır.

Dini ayrı-seçkiliyin törətdiyi müsibət milli intibah epoxasının tərbiyə nəzəriyyəçilərindən Nəriman Nərimanovu (1870-1925) da ciddi şəkildə düşündürmüşdür. Yazıçının məşhur "Bahadır və Sona" romanı (1896-1899) bütövlükdə həmin problemin mahiyyətinin açılmasına, onun bəşəri miqyasda insanlar arasında necə "uçurum dərələr" yaratmasının bədii şərhinə həsr olunmuşdur. Sənətkar bu "uçurum dərələr"in bəşəriyyəti necə bölüb parçaladığını, ümumdünya humanizmi yaratmaqda bir tiryək rolu oynadığını böyük ustalıqla əks etdirmişdir. O, romanda əsərin baş qəhrəmanı Bahadırın dili ilə deyilən belə bir suala cavab axtarır: "Nə sirdir insanlar bir-birindən təfriqə düşüblər?" Əslində bu sual o zaman təkcə Nərimanovu deyil, demokratik düşüncəli Azərbaycan maarifpərvərlərinin çoxunu düşündürürdü. Düşüncənin qaynağı isə həmin dövrə qədərki həm şərq, həm də qərb mütərəqqi fikri idi. "Bahadır və Sona"da göstərdiyimiz suala belə cavab verilir: Bu təfriqələrin ən başlıca səbəblərindən biri etiqad və məzhəb savaşları, dini ayrı-seçkilik və qarşıdurmadır. Bunu uyduranlar, onun müqəssirləri isə adamlar özləridir. Çünki Allah bir, yol bir, həqiqət bir olduğu, bütün peyğəmbərlərin dediyinin mahiyyəti eyniyyət təşkil etdiyi, yəni vahid həqiqətə tapınmaq məqsədi güddüyü halda bu qədər fərqli dinlərə, məzhəblərə, təriqətlərə nə ehtiyac vardır. Əgər bu səhvləri edənlər insanlar özləridirsə, onu düzəltmək də onların borcu, həm də icrası çox vacib olan borcudur. Bahadırın aşağıdakı düşüncələri və mövqeyi əslində XIX-XX əsrin hüdudlarında yaşayıb fəaliyyət göstərmiş milli ziyalılarımızın çoxunun düşüncəsini və mövqeyini ifadə edirdi: "Əcəba! Necə ola bilər ki, bizi "uçurum dərələr" ayıra? Əcəba, bu "uçurum dərələri" biz insanlar düzəldibsə, onları məhv etmək bizim ixtiyarımızda deyilmi? Nə üçün mən müsəlman, siz xristian, qeyrisi yəhudi, ya bütpərəst adlansınlar? Nə üçün bu insanlar sonradan düzülmüş dürlü-dürlü qanunlara sitayiş etsinlər? Təbiimi? Yox! Təbii qanun hamı insanlar üçün bir gərəkdir ola, hamı insanlar bir nöqtəyə gərəkdir yürüş etsinlər. Bu nöqtə isə hürriyyət, məhəbbət aləmidir. Mən sizi sevirəm, siz də məni. "Yox, sevmək olmaz" qanunu var isə mən tam vücudumla bu qanunu məhv etməyə çalışıram. Müsəlman, xristian, yəhudi, bütpərəst nə olacağını anlamıram və istəmirəm də anlamaq!" ( 7,159).

Bahadırın timsalında N.Nərimanov oxucusuna və ümumiyyətlə, geniş kütləyə doğma anasından, ailə üzvlərindən tutmuş mənsub olduğu millətinə, onun ardınca isə bütün millətlərə və insaniyyətə sevgi hissi təlqin edir. Belə ki, Bahadır öz baxış və mövqeyini ifadə edərək bildirir ki, mən həm anamı, həm millətimi, həm də bütün dinlərə mənsub millətləri sevirəm. Mən bütün dinləri və "din gətirənləri" də sevirəm, çünki bu dinləri gətirməkdə onların məqsədi Allahın buyruqlarını insanlara çatdır-maq, onları qaranlıqdan işığa çıxarmaq

olmuşdur. Bu vahid yoldan sapan, onu yanlış anlayıb təfriqə yaradan, adəm övladı arasında "uçurum dərələr" açan insanlar, onların cəhaləti olmuşdur. İndi insanlığın borcu bu uçurum dərələri aradan qaldırıb ümumbəşəri məhəbbətə nail olmaqdır. Belə olarsa, yer üzündə insansevərlik ruhu hakimlik edər.

M.Şahtaxtlı humanist cəmiyyət yaratmaq yolunda fanatizmi də ciddi maneə sayır. "Şərqi-rus" qəzetində "Hər gün bir az" rubrikasında gedən silsilə yazılarında müəllifin toxunduğu aktual məsələlər sırasında bu problem də vardır. Fanatizmin nə olduğunu oxucuya anlatmağa calışan maarifçi bu xüsusda yazır: "Fanatizm ona deyərlər ki, adam öz əqidə etdiyi şeyi həqqi-mütləq bilib, o şey xüsusunda özgəsinin külli və ya cüzi zidd olan rəyi və fikirləri təhqiqsiz rədd edib, bundan əlavə bu adama ki, onunla həmfikir deyildir büğz (düşmənçilik - *G.N.)* və ədavət bəsləyə" (8,176). Müəllif şərh edərək bildirir ki, fanatizm insanlar arasında düşmənçilik və ədavət toxumu səpən bir caniyə bənzəyir. Ondan yaxa qurtarmadan cəmiyyətin rifahı, əmin-amanlığı, sülh və salamatlığı mümkün deyil. Adını çəkdiyimiz silsiləyə daxil olan bir başqa məqaləsində M.Şahtaxtlı nəzərə çatdırır ki, avropalılarda olduğu kimi müsəlman aləmində də ümumi tərəqqi və insaniyyət yalnız o zaman "hasilə gələ bilər" ki, fərd ilə toplumun mənafeyi şüurlu şəkildə qovuşmuş olsun. Yəni fərd bütün cəmiyyətin mənafeyi üçün yaşayıb fəaliyyət göstərsin, cəmiyyət də fərdin mənafeyini qorusun. Fərd dərk etsin ki, "mənim öz xoşgüzəranlığım içində yaşadığım camaatın xoş güzəranlığına bağlıdır. Özümü və əyalımı və mütəəlliqatımı xoşbəxt görmək istərəmsə, ümumun rifah halı nəyi icab edərsə, ona canü dil ilə çalışmalıyam" (8, 112). Maarifpərvər ziyalı izahat verir ki, müsəlman toplumlarında belə bir mütərəqqi və insanpərvər mühitin yaradılması idraka və sevgiyə bağlıdır. Bu həqiqətin mahiyyətini insanlar dərk etməli, biri digərinə ehtiram göstərməli, xeyirxahlıqla yanaşmalıdır.

M.Şahtaxtlı da Avropa maarifçiləri, həmçinin sələfi M.F.Axundov kimi despotizmin və ruhanilər hakimiyyətinin əleyhinə çıxır, onun mütərəqqi ictimai mühit yarat-maq yolunda insani bağları necə doğradığını müasir nöqteyi-nəzərdən şərh edirdi. XIX əsrin sonlarında qələmə aldığı və Fransızca nəşr etdirdiyi (1901) "Türkiyəni necə xilas etməli?" adlı ictimai-siyasi məzmunlu risaləsində o, deyilən məsələyə əhatəli şəkildə toxunur və onun təhlilini verir. Göstərir ki, indi şərqdə tərəqqiyə əngəl olan, lakin Avropanın çoxdan yaxa qurtardığı iki bəla mövcuddur. Bunlardan birincisi ictimai hökmranlığa malik despotizm, ikincisi isə ruhanilər hakimiyyətidir. Avropalılar azad fikri, azad yaşayışı, azad münasibəti, rasional elmi və davranışı insanların əlindən alan bu bəlalardan qurtulmuşlar. Şərq isə hələ də onun əzablarını yaşamaqdadır. Bütün islam aləmi, o cümlədən Türkiyə dövlət despotizminin və ruhanilər hakimiyyətinin ikili zülmünün məngənəsində əzilir. Cəmiyyətdə insanlararası münasibətləri çağdaş dünyanın tələbləri səviyyəsində qurmaqda bu iki buxovdan azad ola bilmir. Başqa sözlə, despotizm və "müsəlman ruhaniləri hakimiyyəti yaxşını pisdən seçmək, öz ağlından istifadə etmək üçün azad seçim qanununu insana verə bilmir" (8,44-45). Deməli, demokratik və humanist cəmiyyət yaratmaqdan ötrü bu ikili zülmə son qoyulmalı, azad seçim və iradəyə əsaslanan ictimai mühit yaradılmalıdır.

M.Şahtaxtlı humanist cəmiyyət yaratmaqda ictimai tolerantlıq mühitinin yaradılmasına da xüsusi dəyər verir. "Şərqi-rus"da"Hər gün bir az" sərlövhəsi ilə silsilə şəklində dərc edilən məqalələrdən birini (17 avqust, 1904) müəllif bütövlükdə həmin problemə həsr etmişdir. Onun fikrincə geniş mənada əsl sosial sülhə, əmin-amanlığa, dincliyə, insanpərvərliyə, dostluğa, mədəni və bəşəri birliyə, millətlərarası qardaşlığa o zaman nail olmaq mümkün olacaq ki, hər kəs başqasının inancına, yaxşı adət-ənənələrinə, mədəniyyətinə, maddi və mənəvi dəyərlərinə, ideya və baxışlarına hörmətlə yanaşsın. Hər bir qövmün "əhvali-aləmə

vaqif olan füzəla"sının "insan camaatı üçün lazım gördüyü təbdilatı, islahatı və təcdidatı (yeniliyi - *G.N.)* kəmali-təlaşla" qəbul etsin.

M.Şahtaxtlı humanist cəmiyyət yaratmaqdan ötrü humanist dövlətə, humanist qanunlara və nəhayət, humanist konstitusiyaya ehtiyac olduğunu söyləyir. Bu mənada onun "Müsəlmanlar və konstitusiya" adlı məqaləsi xüsusi maraq doğurur. Deyilən məsələdə İran və Türkiyə kimi müsəlman ölkələrinin hələ çox geridə qaldığını deyən ideoloq bu sahədə İngiltərə, Fransa və s. qabaqcıl Avropa ölkələrinin təcrübəsindən istifadə etməyə çağırır. Humanist konstitusiyanın mövcudluğunu xalqın sosial-siyasi idealının gerçəkləşməsi yolunda çox gərəkli addım hesab edən Şahtaxtlı həmin idealı məzmun etibarı ilə təxminən bu şəkildə ifadə etmək mümkün olduğunu söyləyir: "Bəşəriyyətin can atdığı hədəf ayrı-ayrı şəxsiyyətlər və yaxud bu və ya digər insan qrupları, zümrə və silklərin deyil, böyük insan ailəsinin istisnasız bütün üzvlərinin xoşbəxtliyi olmalıdır. Əgər xalqlar özləri öz talelərinə sahib çıxarlarsa, yer üzündə yaşayan hər bir insanın həyatının təmin olunması mümkündür" (8, 214). O, israr edir ki, yaranan konstitusiya da bu ideala və prinsiplərə uyğun olmalıdır. Yəni həm qanunvericilik, həm də idarəetmə bütünlüklə xalqın əlində olmalıdır. Bu, humanist cəmiyyət yaratmağın təməl prinsipidir.

Tanınmış pedaqoq yazıçı Sultan Məcid Qənizadənin (1866-1937) yaradıcılığında da humanist baxışların diktəsində maraqlı məqamlarla üzləşirik. "Gəlinlər həmayili" (1898-1900) romanında ədib deyilən məsələyə xeyli yer vermiş, bu barədə öz mülahizələrini ifadə etmişdir. Onun fikrincə "bielm kəslər", yəni "kamal cəhaticə tüfuliyyət dərəcəsində qalmış" naqis bəndələr dünyanı öz vətənlərindən, bəşəriyyəti isə öz millətindən ibarət bilər. Ancaq elm və kamal sahibləri "kürreyi-ərz vətənim və insaniyyət millətimdir" amalı ilə yaşayarlar. Belə aqil kimsələr onu da anlayar ki, millət, din və məzhəb ixtilafı insanlar arasındakı "üxüvvətə" (qardaşlığa) mane ola bilməz. "Zira ki, insan var ikən millət yox idi və həqqaniyyət var ikən məzhəb yox idi". Hər bir millət əslində millətdən cox-cox əvvəl yaranan insaniyyətin bir "cüzi" (hissəsi), hər bir din və məzhəb isə daha əvvəl mövcud olan həqiqətin sonralar baş vermiş təzahürüdür. Deməli, insaniyyət təəssübü "millət və məzhəb təəssübündən" daha qədim və əfzəldir. Müəllif tədricən insaniyyət təəssübünün arxa plana keçməsinin səbəbini fərdi və ictimai xudbinlikdə, mənəvi aşınmada, insani dəyərlərin qəlblərdən qeyb olmasında, daha çox isə verilən tərbiyənin geniş mənada naqisliyində görür. Buna təəssüflənən pedaqoq ədib öz fikirlərini belə izah edir: "...indiki xudbinlik əsrimizdə əgər millətpərəstlik insaniyyət üzrə faiq gələrsə, bəs yəqin səbəbi tərbiyəmizin nasəvablığıdır...İnsaniyyəti atıb millətə yapışmaq və ya həqqaniyyəti atıb məzhəbi tutmaq eyni xüşunətdir" (sərtlik, yanlışlıq - *G.N.*). Qənizadə millətsevərliyi bəşərsevərliklə, dini təəssübkeşliyi bütövlükdə həqiqəti sevməklə əvəz etməyi adəm övladı üçün daha məqbul yol hesab edir (5, 69-70).

Beləliklə, Azərbaycanda əsrlər boyunca humanizm ideyaları pərvəriş tapıb inkişaf etsə də, XIX əsrin ortalarından etibarən onun məzmun və mahiyyətində əsaslı keyfiyyət dəyişməsi baş verdi. Hər şeydən əvvəl bu ideyaların təbliğində, təlqinində ənənəvi moizəçilikdən, nəsihətçilikdən şərhçiliyə, izahata, elmi və ictimai-siyasi inandırma yoluna keçildi. Milli mütəfəkkirlərimiz başa düşdülər ki, moizə ilə, öyüd-nəsihətçiliklə humanizmin sosial-siyasi, hüquqi-mədəni dəyərini kütləyə başa salmaq mümkün deyil. Bu yolda məqsədə yalnız inandırıcı həyati şərhlər, izahatlar, sübutlar, müqayisələr yolu ilə çatmaq olar. Ona görə də İ.Qutqaşınlı, A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, "Əkinçi", "Ziya" və "Kəşkül" qəzetlərinin əməkdaşları, M.Şahtaxtlı, S.M.Qənizadə və s. kimi böyük fikir sahiblərimiz, ömrü və fəaliyyəti XIX yüzilliklə bağlı olan öncül ziyalılarımız mütərəqqi, humanist cəmiyyət yaratmaq istiqamətində xalqı məhz bu yolla tərbiyə etməyi üstün tutdular. XIX əsrin

ortalarından başlayıb Birinci rus inqilabına qədər davam edən dövr isə Azərbaycan ictimai-mədəni və pedaqoji fikrində yeni məzmunlu humanist ideyaların intişarında ilk mərhələ, daha doğrusu, təşəkkül və formalaşma mərhələsidir. Milli mütəfəkkirlərimiz öz ideyalarını həm bədii, həm də ictimai, siyasi, publisistik və pedaqoji məzmunlu əsərlər vasitəsi ilə bəyan edirdilər. Onlar despotizmin, ruhanilər hakimiyyətinin, elmsizliyin, maarifsizliyin, cəhalətin, zülmün, ədalətsizliyin, dini ayrı-seçkiliyin, məzhəb təfriqələrinin, bir sıra mənfi adət-ənənələrin, fanatizmin, mövhumatın, cəmiyyət üzvlərinin ayrı-ayrılıqda fərdi mənafeyinin toplumun mənafeyindən üstün tutulmasının və s.-in humanist cəmiyyət yaratmaq yolundakı fəsadlarını geniş ictimaiyyətə başa salır, xalqı bu ruhda tərbiyə etməyə səy göstərirdilər. Onların bünövrəsini qoyduqları bu böyük missiya tədricən öz səmərəli bəhrəsini verdi. Milli gerçəklikdə deyilən həqiqətləri anlayan mütərəqqi düşüncəli bir nəslin yetişməsinə səbəb oldu. Həmin nəslin hansı uğurlara imza atdıqları isə bəllidir.

**Məqalənin aktuallığı.** M.Şahtaxtlı, N.Nərimanov və S.M.Qənizadənin görüşləri, maarifçi humanist ideyaları müasir ictimai pedaqoji fikrin inkişafında böyük əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** XX əsrin əvvəllərində M.Şaxtaxtlının, S.M.Qənizadənin, N.Nərimanovun humanist görüşlərinin müasir ideyalarla müqayisəli təhlili tədqiqatımızın yeniliyidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** XX əsrin maarifçilərinin humanist görüşlərini müəllimlər müasir humanist ideyalarla müqayisə edib dərslərdə istifadə edə bilərlər

## Ədəbiyyat


1. Əhmədzadə A.Ş. Azərbaycanda humanizm meyllərinin yaranması və inkişafı. Bakı: Elm və təhsil, 2014.
2. "Əkinçi" qəz. (1875-1877). Tam mətni. Təkrarnəşr (Krill əlifbası ilə tərtib edəni: Həsənzadə T.) Bakı: Azərnəşr, 1979.
3. Əliyeva Ş., İlyasov M. və b. Humanist pedaqogikanın aktual məsələləri: Metodik vəsait. Bakı: ADPU-nun nəşri, 2018.
4. Əliyev R. Humanizm tərbiyəsinin sosial-psixoloji əsasları // Azərbaycan məktəbi, 2017, № 5, s. 49-58
5. Qənizadə S.M. Gəlinlər həmayili. Bakı: Yazıçı, 1986.
6. Nərimanov N. Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi. Bakı: Quberniya idarəsi mətbəəsi, 1899.
7. Nərimanov N. Seçilmiş əsərləri. Bakı: Elm, 1973.
8. Şahtaxtlı M. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2006.


**Г. Набиева**

## Гуманистические встречи М.Шахтахтли, Н.Нариманова и С.М.Ганизаде

## Резюме

М.Шахтахтли, Н.Нариманов и С.М.Ганизаде жили и создавались во второй половине XIX века и начале XX века. Это были известные интеллектуалы, держатели

ручек и национальные идеологи того времени. В творчестве всех трех выдающихся личностей широко отражены идеи гуманизма. Они пытались объяснить общественности, что без достижения общей любви в обществе невозможно достичь прогресса и общественного счастья. Способ создать демократическое, свободное и процветающее государство - построить гуманное общество.

В этой статье мы попытались объяснить проблемы, на которые мы ссылаемся с научной точки зрения. Между тем, все три автора были направлены на работы, которые они написали в последние десятилетия 19-го века.

**G. Nabiyeva**

## Humanistic meetings of M.Shahtahtli, N.Narimanov and S.M.Ganizadeh


## Summary

M.Shahtahtli, N.Narimanov and S.M.Ganizadeh lived and created in the second half of XIX century and early 20th century. They were well-known intellectuals, pen holders and national ideologists of that time. In the work of all three prominent personalities, ideas of humanism are widely reflected. They tried to explain to the public that without achieving general love in society, progress and public happiness can not be achieved. The way to create a democratic, free, and prosperous state is to build a humane society.

In the article, we have tried to explain the issues we are referring to from the scientific point of view. In the meantime, all three authors have been referred to the works they have written in the last decades of the 19th century.


**Redaksiyaya daxil olub:** 09.07.2019